*Birinci nəşr*

# Balaca Tacirlərin Macəraları

## 1-ci hissə

**3 və 4-cü siniflər üçün**

Sağlam Təhsil texnologiyalarına cavab verən riyaziyyat və davranış mədəniyyəti standartlarını reallaşdıran inteqrativ dərslik



Müdrik · Haqbilən · Ləyaqətli · Yaradıcı · Mütərəqqi · Güclü · Mərd · Təşkilatlanan


"Həyatda insan hər şeyi öyrənir,
iki keyfiyyətdən başqa: sədaqət və cəsarət.
Bu keyfiyyətlər insanın qanında olur!"
ÜMUMMİLLİ LİDER
HEYDƏR ƏLİYEV

ADPU-nun 18 iyul 2024-cü il tarixli Elmi Şuranın
iclasının 9 saylı protokoluna əsasən

Uşaqlar üçün "Balaca Tacirlərin Macəraları" dərsliyi Azərbaycan Respublikası Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin və Paşa Holding-in dəstəyi ilə KOB-lar üçün İnsan İnkişafı Forumu və Platforması layihələri çərçivəsində Milli Təhsil Texnologiyaları Mərkəzi, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan Tibb Universiteti və İnkişaf Korporasiyasının birgə işçi qrupu tərəfindən hazırlanmışdır:

KOBİA
Azərbaycan Respublikasının
Kiçik və Orta Biznesin
İnkişafı Agentliyi

PAŞA Holding

AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ

Azərbaycan
Tibb Universiteti

MİLLİ TƏHSİL TEXNOLOGİYALARI MƏRKƏZİ

İNKİŞAF KORPORASİYASI

## İşçi qrupun rəhbəri

Xalidə Aydın qızı Həmidova - ADPU-nun baş müəllimi, p.ü.f.d., kitabın elmi redaktoru, **Sağlam Təhsil üzrə mütəxəssis**

## Pedoqoji blok

Hicran Əvəz qızı Manafova - Sumqayıt şəhər Yusif Məmmədəliyev adına 31 nömrəli tam orta məktəbin ibtidai sinif müəllimi (STS üzrə ustad müəllim) 2018-ci il nazirlik tərəfindən təşəkkürnamə ilə təltif olunub. **Sağlam Təhsil sinifləri üzrə "Fəal müəllim".**

Məsudə Kamran qızı Quliyeva - Sumqayıt şəhər Yusif Məmmədəliyev adına 31 nömrəli tam orta məktəbin ibtidai sinif müəllimi. **Sağlam Təhsil sinifləri üzrə Ustad müəllim".**

Təhminə Möhləddin qızı Ağayeva - Yasamal rayonu M.Müşfiq adına 18 nömrəli tam orta məktəbin ibtidai sinif müəllimi. 2022-ci il İbtidai sinif müəllimlərinin sertifikasiyası imtahanında Respublika birincisi. **Sağlam Təhsil sinifləri üzrə "Fəal müəllim".**

Şahnaz Əlövsət qızı Yusif-zadə - Bakı şəhəri 161 nömrəli tam orta məktəb ibtidai sinif müəllimi. **Sağlam Təhsil sinifləri üzrə "Fəal müəllim".**

Nigar Nurəddin qızı Mehdizadə - Suraxanı rayonu, 279 nömrəli tam orta məktəbin Sağlam təhsil sinifləri üzrə ibtidai sinif müəllimi. **Sağlam Təhsil sinifləri üzrə "Fəal müəllim".**

Arzu Xeyrullah qızı İmanova - Sumqayıt şəhər Yusif Məmmədəliyev adına 31 nömrəli tam orta məktəbin ibtidai sinif müəllimi ("Elektron Təhsil" Respublika müsabiqəsinin 1-ci yer qalibi).

## Sosioloji blok

Nigar Faiq qızı Şahhüseynbəyova - Azərbaycan Universiteti, Sosial işin təşkili kafedrasının müdiri, s.ü.f.d., MTTM-in sədri

## Tibb-gigiyenik blok

Şəhla Murad qızı Balayeva - ATU, Uşaq-Yeniyetmələrin sağlamlığı və əmək sağlamlığı kafedrasının müdiri, t.ü.f.d., dosent

## Rəyçilər

Zöhrə Qoca qızı İsmayılova - ATU, uşaq-yeniyetmələrin sağlamlığı və əmək sağlamlığı kafedrasının dosenti, t.ü.f.d.

Afaq Camaləddin qızı Hüseyn - UNEC, "Biznesin idarə edilməsi" kafedrası, dosent, i.e.n.

Kifayət Aslan qızı Xudaverdiyeva - UNEC, "Biznesin idarə edilməsi" kafedrası, dosent

Nailə Tofiq qızı Hüseynova - ADPU-nun Məktəbəqədər təhsil fakültəsinin dekanı, p.ü.e.d. dosent

Gülşən Tahir qızı Eminova - ADPU-nun İbtidai təhsil pedoqogikası kafedrasının baş müəllimi, p.ü.f.d.

## Tərtibat üzrə blok

Novruz İsa oğlu Səfərəlizadə - Art direktor

Gülgün Malik qızı Bayramlı - İllustrator

Saday Şahsuvar oğlu Süleymanlı - Mətn tərtibatçısı

# İnsan inkişafı, biznes mədəniyyəti, "Sağlam təhsil" və "Birgə Kod"

Bu inteqrativ dərslik, uşaqların riyazi biliklərini artırmaqla yanaşı, onların biznes davranış mədəniyyətini formalaşdırır, fiziki, psixi və mənəvi sağlamlıqlarını qorumağı və inkişaf etdirməyi qarşıya məqsəd qoyur. 3-cü və 4-cü siniflər üçün hazırlanan "Balaca tacirlərin macəraları" dərsliyi uşaqlarda biznes mədəniyyəti, bilik və bacarıqları inkişaf etdirir, gələcək KOB-lar üçün insan resurslarının formalaşmasına töhfə verir.

## Ulu Öndərin tövsiyəsinə xidmət edən "Sağlam təhsil - Sağlam millət" yanaşması



Ulu Öndər Heydər Əliyevin "Təhsil millətin gələcəyidir" kəlamı ölkəmizdə təhsilin strateji əhəmiyyətini vurğulayan əsas fikir olaraq qalır. Təhsil millətin xoşbəxtliyini, mədəniyyətini, iqtisadi rifahını və bütövlükdə insan inkişafını ehtiva edən hər şeyin və eyni zamanda dövlətin iqtisadi, sosial, siyasi, hərbi, mənəvi və ekoloji təhlükəsizliyinin "gələcəyidir".

Bütün bu amillər bir araya gələrək, təhsilin yalnız bilik və bacarıqların deyil, həm də sağlamlıq və rifahın təmin edilməsindəki rolunu daha da mühüm edir. Ümumdünya Səhiyyə Təşkilatına görə, sağlamlıq yalnız xəstəlik və ya əlilliyin olmaması deyil, tam fiziki, əqli və sosial rifah vəziyyətidir. Buna uyğun olaraq, "Sağlam təhsil - Sağlam millət" yanaşması gələcək nəsillərin həm ümumi, həm də biznes biliklərini artırmaqla yanaşı, onların fiziki, psixi və mənəvi sağlamlıqlarını da qorumağı və inkişaf etdirməyi qarşıya məqsəd qoyur.

Azərbaycanın "2030: Sosial-İqtisadi İnkişafa dair Milli Prioritetlər" sənədində qeyd olunduğu kimi, rəqabətədavamlı insan kapitalının formalaşdırılması üçün müasir təhsil, innovasiyaları təşviq edən münbit şərait və insanların sağlamlığı əsas şərtdir.

Ulu Öndərin "Təhsil millətin gələcəyidir" sözlərini dərk edən, "sağlam təhsil" təfəkkürünə sahib olan təhsil mühəndisinin (məmurun, idarəçinin, müəllimin) fəaliyyəti, ölkənin gələcəyinin hərtərəfli sağlam olmasına xidmət edir.



44 günlük Vətən müharibəsi zamanı Azərbaycan xalqı bir bayraq altında, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin ətrafında birləşərək səfərbər oldu. Bu birliyə və səfərbərliyə əsaslanan milli ruh sülh dövründə də davam etdirilməlidir. Lakin bu səfərbərlik artıq fiziki deyil, milli-mənəvi dəyərlərin qorunması və yaşadılması üçün mədəni və mənəvi səfərbərlik kimi reallaşır. Bu yanaşma, cəmiyyətimizin "Birgə Kod" fəlsəfəsi ilə harmoniya təşkil edərək, milli-mənəvi dəyərlərin təbliğini, "mədəni immunitet"in formalaşmasını və "məsuliyyət mədəniyyəti"nin inkişafını təmin edir.



Milli dəyərlər təhsilin əsasını təşkil edərək, biznes və davranış mədəniyyətinin inkişafına da təsir göstərir. Dövlətimizin bayraq dəyərlərinə uyğun formalaşdırılan "Birgə Kod" biznesdə davranış mədəniyyətini yönləndirir və ölkənin iqtisadi inkişafına xidmət edən əsas prinsipləri əks etdirir. Bu çərçivədə milli birlik, sosial məsuliyyət və iqtisadi təfəkkürə əsaslanan davranış qaydalarının tətbiqi, Azərbaycan cəmiyyətinin mədəni və iqtisadi tərəqqisinə zəmin yaradır.

Güclü * Mərd * Təşkilatlanan * Yaradıcı * Müdrik * Haqbilən * Ləyaqətli * Mütərəqqi





3 və 4-cü siniflər üçün hazırlanan “Balaca tacirlərin macəraları” inteqrativ dərslik vəsaiti, təhsilalanlarda biznes mədəniyyətini formalaşdırmaq məqsədilə “Sağlam təhsil” texnologiyaları əsasında hazırlanmışdır. Bu dərslik, uşaqlarda riyazi biliklər və biznes təfəkkürünü birləşdirərək, onların analitik və yaradıcı düşüncəsini inkişaf etdirməyi hədəfləyir. Təqdim olunan inteqrativ dərslik gigiyenik, psixi-fiziki və mənəvi tələblərə uyğun şəkildə tərtib edilmiş 44 dərsdən ibarətdir. “Sağlam təhsil” texnologiyaları əsasında qurulan dərslər, inteqrativ hekayə formatında, psixo-fizioloji tələblərə uyğun üç mərhələdən ibarətdir: biliklərin həkk olunması, əl işləri və nitq quruculuğu.

Dərsliyin tərtibatında kağız keyfiyyəti, şrift ölçüsü və rənglər Sağlam Təhsil texnologiyalarına uyğun olaraq, yaş kateqoriyasına müvafiq gigiyenik tələblərə əsasən seçilmişdir. Bu, uşaqların psixi-fiziki sağlamlığının qorunmasına və biliklərin daha effektiv şəkildə mənimsənilməsinə kömək edir.



## İnsan inkişafında multidisiplinar yanaşmanın əhəmiyyəti və zəruriliyi

İnsan inkişafındakı kompleks problemlərin həllində multidisiplinar yanaşmaya ehtiyac var. Çünki insan inkişafı çoxşaxəli, dinamik prosesdir və müxtəlif sahələrdən təsirlənir. Məsələn, **psixologiya və fiziologiya** birbaşa insanın zehni və fiziki vəziyyətini izləyir, **pedaqogika** isə təhsil və öyrənmə vasitəsilə insanın inkişafına kömək edir. **Sosiologiya**, cəmiyyətdəki davranışları və sosial əlaqələri anlamağa imkan verir, insan təcrübəsinə təsir edən sosial rollar və gözləntiləri araşdırır. **Gender** yanaşması "Bərabərlik eynilik deyil" prinsipinə əsaslanır və cinslər arasındakı bioloji fərqləri qəbul etməklə yanaşı, qızların və oğlanların bərabər imkanlarla inkişafını təmin etmək üçün onların spesifik ehtiyaclarını nəzərə alır. **Tarix və din** sahəsindəki mütəxəssislər, keçmişin və mədəniyyətin insan davranışlarına, dəyərlərinə və milli kimliyin formalaşmasına təsirini araşdırmaqda mühüm rol oynayırlar. **İnsan resursları** mütəxəssisləri isə iş yerində insan münasibətlərini və təşkilati dinamikaları idarə etməklə yanaşı, əmək mühitinin keyfiyyətini yüksəltməyə çalışırlar.







**Milli təhlükəsizlik** sahəsi isə siyasi, sosial, mənəvi, iqtisadi, hərbi və ekoloji təhlükəsizliyin təmin edilməsinə yönəlib, çünki insan inkişafı və milli təhlükəsizlik bir-birinə sıx bağlıdır və birinin vəziyyəti digərinə birbaşa təsir göstərir.




Belə bir yanaşma problemlərin həlli üçün müxtəlif sahələrin təqdim etdiyi perspektivlər arasında balans qurmağa imkan verir və bu da daha hərtərəfli və dayanıqlı həll yollarının tapılmasını təmin edir. Bu yanaşma problemləri təkcə bir aspektdən deyil, daha geniş və dərin bir prizmadan qiymətləndirərək, inkişafın hərtərəfli dəstəklənməsini mümkün edir.


***Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru,***
***professor Cəfər Cəfərov***

# #BirgəKod

© İnkişaf Korporasiyası

Mütərəqqi * Güclü * Mərd * Təşkilatlanan * Yaradıcı * Müdrik * Haqbilən * Ləyaqətli *

## 6

- Fədakar
- Dürüst — C25 İntegrity
- Cəsarətli — C25 Bravery
- Mübariz
- Prinsipial — IBP Principled
- Yaxşılıqlara dəvət edən və pisliklərdən çəkindirən

## 6

- Fiziki mədəniyyətə malik-fiziki cəhətdən sağlam — IBS 36 Gross motor skills, IBS 36 Fine motor Skills
- Fiziki sağlamlığını və tətbiqi bacarıqlarını inkişaf etdirən — İBS 36 Healthy Lifestyle
- Emosional zəkalı — D10 Resilience, stress tolerance and flexibility
- Özünə əmin — İBA12 Confidence
- İradəli — C25 Persistence, C25 Self-Regulation
- Nikbin — C25 Hope, C25 Humor

## 10

- Məqsədyönlü — TMA Result Orientedness
- İntizamlı — TMA Discipline, TMA Planning and Organizing
- Müstəqil — TMA Independence
- Təşəbbüskar — TMA İnitiative
- Tədbirli — IBS36 Safety
- Əməkdaşlıq etməyi bacaran — TMA Cooperation
- Məsuliyyətli — TMA Accountability
- Lider — D10 Leadership and social influence
- Ünsiyyətcil — TMA Negotiating
- Çalışqan (əməksevər, zəhmətkeş) — C25 Vitality

## 5

- Özünü inkişaf etdirən — TMA Self Development
- Çevik uyğunlaşan — TMA Adaptability
- Geniş maraq dairəsi olan — C25 Curiosity, D10 Technology use, monitoring and control, D10 Technology design and programming
- Tələbyönümlü — TMA Customer Orientation
- Sosial mədəniyyətə malik — TMA Social Awareness

## 8

- Tədqiqatçı — D10 Active learning and learning strategies
- Problemləri kompleks həll edən — D10 Complex problem solving
- Açıq fikirli — C25 Open mindedness
- Yaradıcı təfəkkürlü — D10 Creativity, originality and initiative
- Nəzəri təfəkkürlü — D10 Reasoning, problem-solving and ideation
- Tənqidi təfəkkürlü — D10 Critical thinking and analysis
- Praktik təfəkkürlü — IBS 36 Application
- Məntiqi təfəkkürlü — D10 Analytical thinking and innovation

## 11

- Etibarlı (Güvənli, Sadiq)
- Nəcib
- Estetik mədəniyyətə malik
- Vicdanlı
- Ədalətli (Adil) — C25 Fairness
- Təvazökar — C25 Humility and Modesty
- Xeyirxah
- Səxavətli
- Mərhəmətli — C25 Kindness, C25 Forgiveness and Mercy
- Qayğıkeş — C25 Love
- Nəzakətli (xoşrəftar - etik qaydalara riayət edən) — IBS36 Code of Behaivour

## 6

- Mötədil — IBP Balanced
- Uzaqgörən — C25 Prudence, C25 Perspective
- Dəyər verən və faydalanan — İBA12 Appreciation
- Özünü qiymətləndirən — C25 Assesment and Application
- Sosial institutları (ailə, təşkilat) anlayan — TMA Organization sensitivity, TMA Political sensitivity
- Münaqişələri həll edən — TMA Conflict Management

## 18

- Rəhbərin haqqını təmin edən — K18 Sadiqlik-loyallıq
- Multikultural mədəniyyətinə loyal — İBA 12 Tolerance
- Vətənin haqqını təmin edən — C25 Citizenship
- Ekoloji mədəniyyətə malik
- Vətənə xidmət edənlərin haqqını bilən və təmin edən — K18 Sadiqlik-loyallıq
- Yaradanın haqqını təmin edən — C25 Spirtuality, C25 Gratitude, C25 Appreciation of beauty and excellence
- Hüquqi mədəniyyətə malik
- Azərbaycan dəyərlərlərinə malik olanların haqqını təmin edən
- Valideynin haqqını təmin edən
- Tabeçiliyində olanların haqqını təmin edən
- Həyat yoldaşının haqqını təmin edən
- Ehtiyaclıların haqqını təmin edən
- Övladın haqqını təmin edən
- Alimlərin, müəllimlərin və elmin haqqını təmin edən
- Qohumların haqqını təmin edən
- Böyüklərin və kiçiklərin haqqını təmin edən
- Qonşuların haqqını təmin edən
- Qonağın haqqını təmin edən

**Mədəniyyətimiz**
Bayrağımızın
Rənglərindədir

**Bayrağımızı**
Əməllərdə
Yaşadaq!

# Mündəricat


| | | |
|---|---|---|
| Dərs 1 | **"Birgə Kod" 8 dəyər** | 12-13 |
| Dərs 2 | Güclü Emosional zəkalı | 14-16 |
| Dərs 3 | Güclü İradəli | 17-19 |
| Dərs 4 | Güclü Özünə əmin | 20-22 |
| Dərs 5 | Mərd Dürüst | 23-25 |
| Dərs 6 | Mərd Prinsipial | 26-28 |
| Dərs 7 | Təşkilatlanan Məqsədyönlü | 29-32 |
| Dərs 8 | Təşkilatlanan Müstəqil | 33-35 |
| Dərs 9 | Təşkilatlanan Tədbirli | 36-38 |
| Dərs 10 | Təşkilatlanan Məsuliyyətli | 39-40 |
| Dərs 11 | Təşkilatlanan Ünsiyyətcil | 41-43 |

# Mündəricat


| | | | |
|---|---|---|---|
| Dərs 12 | Təşkilatlanan | İntizamlı | 44–46 |
| Dərs 13 | Təşkilatlanan | Əməkdaşlıq etməyi bacaran | 47–49 |
| Dərs 14 | Təşkilatlanan | Çalışqan | 50–52 |
| Dərs 15 | Təşkilatlanan | Təşəbbüskar | 53–56 |
| Dərs 16 | Təşkilatlanan | Lider | 57–59 |
| Dərs 17 | Yaradıcı | Tədqiqatçı | 60–62 |
| Dərs 18 | Yaradıcı | Açıqfikirli | 63–65 |
| Dərs 19 | Haqbilən | Ekoloji mədəniyyətə malik | 66–68 |
| Dərs 20 | Yaradıcı | Praktik təfəkkür | 69–71 |
| Dərs 21 | Müdrik | Özünü qiymətləndirən | 72–74 |
| Dərs 22 | Yaradıcı | Nəzəri təfəkkür | 75–77 |


Əl işi | Nitq quruculuğu | Ev tapşırığı | Yaradıcı tapşırıq

Dərs 1

# “Birgə Kod” 8 dəyər





Ömər əllərini "Dəmir Yumruq" kimi sıxdı.
44 günlük vətən müharibəsində qazandığımız qələbə bizim birliyimizin, gücümüzün və əzmkarlığımızın simvoludur. Biz də gələcəkdə Vətənimizin güvənə biləcəyi insanlar olacağıq!
Şəhidlərimizin canlarını fəda etdikləri bu torpaqları biz mərd, ləyaqətli və müdrik olaraq qoruyacağıq.
Bəli biz yaxşı oxumalı, yaradıcı və mütərəqqi cəmiyyətin qurucuları olmalıyıq.
Bu torpaqlara layiq olmaq bizim borcumuzdur.
Mübariz İbrahimov kimi qəhrəmanlarımızı unutmaq mümkün deyil. O, təkbaşına düşmən üzərinə getdi, adını tarixə əbədi yazdırdı. Biz də onun kimi güclü, mərd və təşkilatlanan olmalıyıq.
Şəhidlərin şərəfini və ləyaqətini hər zaman uca tutmaq bizim borcumuzdur.
Biz Vətənimizə, torpağımıza, bayrağımıza layiq vətəndaş olacağıq.
Gələcək işlərimizin əsasında Vətən sevgisi dayanacaq!
Onlar bu qüruru ürəklərində hiss edərək, qürurla Şəhidlər Xiyabanını tərk etdilər.
Sanki bu an onların hər biri müdrik, təşkilatlanan, mərd və ləyaqətli vətəndaş olma yolunda bir addım daha atmışdı.

# Güclü Emosional zəka



Aişə, Əli, Ömər və Fatimə yeni layihədə iştirak edirdilər. Layihənin adı "Əvəz et..." dir.

Onlar bütün uşaqların kitab oxumağını asanlaşdırmaq üçün məktəbin kitabxanasında olan kitabları rəqəmsal formatla əvəz etmək qərarına gəldilər. Aişə və Fatimə hansı kitabların rəqəmsal formata keçirilməli olduğunu müəyyən etdilər. Əli və Ömər isə kitabların skan edilməsi üçün kitabxananı skaner ilə təmin etdilər. Onlar həmçinin maliyyə planını da hazırladılar.

İlk günlərdə işlər yaxşı gedirdi, amma bir problem ortaya çıxdı: kitabların bəzi səhifələri skan edilərkən yaxşı görünmürdü və bu  da layihənin keyfiyyətinə təsir edirdi. Uşaqlar çox məyus oldular və ümidlərini itirdilər. Fatimə tez yoldaşlarına emosiyalarını cilovlamaq və bu vəziyyətin həlli yollarını axtarmağa başlamağı məsləhət verdi. Uşaqlar kitabxananın müdirinə müraciət etdilər və onunla danışaraq problemi izah etdilər. Müdir onlara daha yaxşı skan aparatı məsləhət gördü. Uşaqlar skan aparatını icarəyə götürdülər və layihəni uğurla başa çatdırdılar.




Bu hekayə Aişə, Əli, Ömər və Fatimənin birlikdə çalışaraq və başqalarının məsləhətlərini dinləyərək necə uğur qazandığını göstərir. Problemlə qarşılaşdığımız anda emosiyalarımızı cilovlayaraq, doğru qərar verərək çətinliyi aradan qaldıra bilərik.

# Əl işi

**Qrup işi: Kitabxanadan Azərbaycan yazıçılarına aid 5 kitab, xarici yazıçılara aid 3 kitab götürün.**

1. Kitabların səhifələrinin sayını cədvəl üzrə təqdim edin.

2. Azərbaycan yazıçılarının əsərləri olan kitablarda cəmi neçə səhifə skan edilməlidir?

3. Xarici yazıçıların əsərləri olan kitablarda cəmi neçə səhifə skan edilməlidir?

4. Ümumilikdə cəmi neçə vərəq skan edilməlidir?

5. 100 səhifəni skan etmək üçün 1 kvt.s işıq sərf edilirsə, bütün kitabları skan etmək üçün neçə kvt.s işıq sərf edilər? Hesablamada yuvarlaqlaşdırmadan istifadə edə bilərsiniz.

6. 1kvt.s=8 qəp olarsa, bütün kitabların skan edilməsinə nə qədər məbləğ lazımdır?

7. Əgər yeni skan texnologiyasının icarəyə götürülməsi üçün 50 manat ödənilərsə, ümumi məbləği hesablayın.

## Nitq quruculuğu

1. Kitablardan rəqəmsal formatda istifadə etmək nə üçün gərəklidir?

2. Düşünün ki, bu layihənin iştirakçılarındansınız və layihənin icrası üçün maliyyə əldə etməlisiniz. Maliyyə əldə etmək üçün iş adamlarına təqdimat hazırlayın və onları layihənin faydalarına necə inandıracağınıza aid çıxış hazırlayın.

## Ev tapşırığı:

Kitabxanaçı ilə intervyu aparın: Məktəbin kitabxanasında olan kitabların sayı və siyahısı haqqında məlumat toplayın. Hansı kitabların rəqəmsal formata keçirilməsinə ehtiyac olduğunu müəyyən edin. Kitabxanada kitabların skan edilməsi və rəqəmsal formatda saxlanılması üçün lazımi texnologiyanın olması haqqında məlumat alın. Layihənin maliyyə planını hazırlayın.

**Güclü** İradəli

Bir yay günü Aişə, Əli, Ömər və Fatimə özlərinə yeni bir hədəf qoydular. Onlar məktəbin yanında limonad stendi açmaq və bu yolla pul qazanmaq istədilər. Lakin eyni yerdə başqa bir limonad stendi də açılmışdı və rəqabət güclü idi. Bu, onlara həm biznes bacarıqlarını inkişaf etdirmək, həm də rəqabətdə uğur qazanmaq üçün böyük bir imkan idi.

Əvvəlcə onlar plan hazırlamağa başladılar. Aişə və Fatimə limonadın reseptini təkmilləşdirmək üçün müxtəlif üsullar sınadılar. Əli və Ömər isə stendin dizaynı və maliyyə planı üzərində çalışdılar. Onlar limonadın maya dəyərini və satış qiymətlərini hesabladılar.

İlk günlərdə işlər yaxşı gedirdi, amma rəqib stendin limonadı daha ucuz satıldığı üçün onların satışları azaldı. Uşaqlar məyus oldular.






Fatimə əlavə etdi: “Biz hər bir limonad stəkanının maya dəyərini və satış qiymətini dəqiq hesablamalıyıq. Əgər gündə 50 stəkan satsaq, kifayət qədər gəlir əldə edə bilərik”.

Aişə, Əli, Ömər və Fatimənin yeni strategiyaları sayəsində limonad stendi yenidən canlandı. Populyar olması üçün adamlara pulsuz limonadlar təklif edib dadını və keyfiyyətini reklam etdilər.

Beləliklə, uşaqlar öz iradələri sayəsində işlərini uğurla başa çatdırdılar.

# Əl işi

1. Əli ilə Ömər maraqlı və cəlbedici limonad stendi hazırlamağı qərara aldılar. Sizcə, necə limonad stendi hazırlamaq lazımdır ki, insanların diqqətini cəlb etsin?

2. Müxtəlif limonad stendi modelini hazırlayaraq təqdim edin.

3. Uşaqların hazırladıqları limonadın maya dəyərini və satış qiymətini hesablayın. 1 portağal, 2 limon, 2 l. su, 1 stəkan şəkər tozundan 3 l. limonad hazırlanır. 250 ml. limonadın maya dəyəri 35 qəpik, satışı 55 qəpik olarsa 3 l. limonadın qazancı nə qədər olar?

4. Yay fəsli olduğuna görə çiyələkli limonad reseptini hazırlayın. Reseptə içkinin tərkibi və keyfiyyəti haqqında məlumat yazın.

**Nümunə:**

| **Ərzaq** | **Miqdar** |
|---|---|
| Çiyələk | 200 qr. |
| Bal | 100 - 120 q. |
| Nar | 30 qr. |
| Limon suyu | 70 ml. |
| Buz | 40 qr. |

## Yaradıcı tapşırıq

**Siz də sevdiyiniz meyvə limonadının reseptini hazırlayın.**

## Ev tapşırığı :

Ölçmə şüşəsi hazırlayın. Biri böyük, digəri isə 250 ml. olan iki boş şüşə götürün. 250 ml. şüşəni su ilə doldurun və bütün suyu böyük şüşəyə tökün. Birinci səviyyəni 250 ml., ikinci 500 ml., üçüncü səviyyəni isə 750 ml. olaraq qeyd edin. Prosesi 1 l. səviyyəyə qədər təkrarlayın.

Beləliklə, 250 ml. olan şüşədən istifadə edərək neçə dəfəyə 500 ml., 750 ml., 1 litrlik ölçü şüşəsini doldurmaq olar?

## Güclü Özünə əmin

Bir gün Aişə, Əli, Ömər və Fatimə məktəbdə yeni layihə üçün bir araya gəldilər. Məktəbin yaxınlığında yeni bir idman zalı açılmışdı. Onlar burada idman geyimləri və idman avadanlıqlarının satışı ilə bağlı kiçik biznes qurmaq qərarına gəldilər. Bu, onların həm öz biznes bacarıqlarını inkişaf etdirmək, həm də maliyyə biliklərini tətbiq etmək üçün böyük bir imkan idi.



Onlar biznes planı hazırlamağa başladılar. Aişə və Fatimə hansı məhsulların satılacağını müəyyən etmək üçün araşdırma apardılar. Əli və Ömər isə maliyyə planı üzərində çalışdılar. Onlar məhsulların maya dəyərini və satış qiymətlərini hesabladılar.

Cədvəl quraraq yeni müştərilər cəlb etmək üçün plan hazırladılar. Köhnə idman paltarlarının üzərinə məşhur idmançıların adlarını və şəkillərini yapışdırdılar.
İlk gün satış uğurlu keçməsə də, uşaqlar ruhdan düşmədilər, özlərinə güvənərək daha çox çalışdılar.




Fatimə reklamı daha təsirli etmək üçün bəzi dəyişikliklər etdi. Aişə və Əli stendi daha cəlbedici hala gətirdilər. Ömər isə müştərilərlə ünsiyyət qurmağa başladı.

Onların özgüvəni və dəqiq hesablamaları sayəsində satışlar artdı, gözlədikləri gəlirləri əldə etdilər.



## Əl işi

1. Uşaqlar 1-ci gün 20 idman forması sataraq 160 manat gəlir əldə etdilər. 2-ci gün formanın qiymətini 2 manat artıraraq 18 idman forması satdılar. Əgər bir idman formasının maya dəyəri 5 manat 80 qəpikdirsə , satılan idman formalarından nə qədər gəlir əldə edilər?

2. Ömər və Əli 15 su şüşəsi sataraq 60 manat pul qazandılar. 1 su şüşəsindən 80 qəpik gəlir əldə etmək olursa, 25 su şüşəsinin maya dəyərini hesablayın.

## Yaradıcı tapşırıq

1. Müştəriləri cəlb etmək üçün nə cür paketləmə formaları hazırlamaq olar? Hazırladığınız formaları təqdim edin.

2. Satılacaq məhsulun diqqət çəkməsi üçün reklamlar hazırlayın. (Məsələn: şüarlar, afişa, sosial media postları)

**Qeyd:** Bu tapşırığın qruplarla işlənilməsi tövsiyə olunur.

## Nitq quruculuğu

Aişə, Əli, Ömər və Fatimə məşhur bir idmançının imzalı məhsullarını satmaq və ya xüsusi endirim kampaniyaları düşünürlər. Bəs siz müştəri cəlb etmək üçün hansı məhsulları təklif edə bilərsiniz? Bu təkliflər haqqında təqdimat hazırlayın.

## Ev tapşırığı:

Siz də yeni biznesin inkişafı üçün layihə hazırlayın.

Aişə, Əli, Ömər və Fatimə dərsdən sonra əvvəlcədən sözləşdikləri kimi məktəbin arxasındakı parkda görüşdülər. Məktəb yaxınlığında “Sağlam həyat” sərgisi keçirildiyini eşidən dostlar burada iştirak etmək istəyirdilər. Onlar sərgiyə qoşularaq evdə hazırlanmış sağlam qəlyənaltıların satışı ilə bağlı kiçik biznes qurmağı qərara almışdılar.

Uşaqlar layihə üçün əvvəlcə kiçik bir biznes planı qurdular. Aişə və Fatimə hansı qəlyanaltıların satılacağını müəyyən etmək üçün bir araşdırma apardılar. Əli və Ömər isə qəlyanaltıların maya dəyərini və satış qiymətlərini hesablayaraq maliyyə planı üzərində işləməyə başladılar.

Aişə və Fatimə reklam kampaniyası zamanı daha çox müştəri cəlb etmək üçün yeni strategiya düşündülər. Reklamın effektiv olması, məhsulların bol satışı, biznesin uzun müddətli olması üçün müzakirələr apardılar.



Aişə məhsulların faydaları və qiymətləri barədə məlumat topladı. Fatimə isə reklam lövhəsini yeni dizaynla bəzəyərək sərgiyə yerləşdirdi.

Məhsullar hazırlanaraq stend quruldu və reklam olunmağa başladı. İlk gün uşaqların stendi maraq yaratdı və çoxlu müştəri gəldi. Amma bir problem ortaya çıxdı: bir neçə müştəri şikayət etdi ki, bəzi qəlyanaltı paketləri tam dolu deyil və bəzi məhsulların dadı gözlənilən kimi deyil.

Uşaqlar dərhal müştərilərdən üzr istədilər. Problemi həll etmək üçün şikayətləri dinləyərək yenidən hazırlanmış məhsullar təqdim etdilər. Onlar dürüstlük göstərərək məhsulların düzgün qablaşdırılmasını təmin etdilər və hər bir müştəriyə əlavə bir paket qəlyanaltı hədiyyə etdilər.

Fatimə dedi: "Dürüst olmaqla, müştərilərin etibarını qazandıq. Onlar yenidən bizdən alış-veriş edəcəklər".

Əli əlavə etdi: "Biz yalnız dürüst davranmaqla qalmadıq, həm də müştərilərin məmnuniyyətini təmin etdik".

**HƏR BİR PROBLEMİ YARADICI VƏ PRAKTİK YOLLARLA HƏLL ETMƏK MÜMKÜNDÜR.**



## Əl işi

1. Əli və Ömər stend qurmaq üçün 1 saat vaxt sərf etdilər. Hər 10 dəqiqədən bir reklam lövhəsi dəyişərsə, stendi qurandan sonra 5 reklam lövhəsinə ümumilikdə nə qədər vaxt sərf olunar?

2. Aişə və Fatimə qəlyanaltı hazırlamaq üçün 35 manatlıq təbii ərzaq və 12 manatlıq qablaşdırma paketləri aldılar. 30 ədəd qəlyanaltı düzəldib 2 manat 30 qəpiyə satdılar. Aişə və Fatimə satışdan nə qədər gəlir əldə etdilər?

### Yaradıcı tapşırıq

1. Sağlam qəlyanaltılar hazırlayın (meyvə dilimləri, qoz-fındıq ləpələri, enerji topları, pendirli buterbrodlar).

2. Evdə hazırlanmış sağlam qəlyanaltılara cəlbedici dizaynlar vermək üçün fikirlərinizi yazın və şəkillərini çəkin. Qəlyanaltılara elə dizayn verin ki, onların maraqlı görünüşü insanları cəlb etsin.

3. Ekoloji təmiz qablaşdırmalar üçün cəlbedici paketlər hazırlayın.
   a. Məhsulların maya dəyərini və gəlirini hesablayın.
   b. Kağız, karton və digər təbii materiallardan qablaşdırma üçün yeni dizaynla loqo, etiket hazırlayın.

## Nitq quruculuğu

Siz də sərgini daha maraqlı etmək üçün sadə sorğular hazırlayıb müştərilərin fikirlərini öyrənin.

## Ev tapşırığı:

- Şəxsi və peşəkar inkişaf üçün satış yarmarkası planını hazırlayın.
- Piştaxtaların daha maraqlı görünməsi üçün süfrələr tikin.

## Mərd Prinsipial

Aişə, Əli, Ömər və Fatimə yeni layihə üçün bir araya gəldilər. Onlara məktəbin kitabxanasında olan köhnə kitabları toplayaraq satmağı tapşırdılar. Bu kitabların satışından əldə olunan gəliri isə məktəbin ehtiyaclarına sərf etməyi planlaşdırdılar. Bu, onların həm biznes bacarıqlarını inkişaf etdirmək, həm də öz prinsiplərinə sadiq qalmaq üçün böyük bir imkan idi.

Onlar biznes planı hazırlamağa başladılar. Aişə və Fatimə hansı kitabların daha çox maraq doğuracağını müəyyən etmək üçün kitabları gözdən keçirdilər. Əli və Ömər isə maliyyə planı üzərində çalışdılar. Onlar kitabların maya dəyərini və satış qiymətlərini hesabladılar.

Məhsullar hazırlanmış, stend qurulmuş və reklam başlamışdı. İlk gün uşaqların stendi hər kəsin marağına səbəb oldu və çox müştəri gəldi. Amma bir problem ortaya çıxdı.





Bir neçə müştəri şikayət etdi ki, bəzi kitablar gözlənilən qədər yaxşı vəziyyətdə deyil. Uşaqlar köhnə kitabları daha yaxşı vəziyyətdə olan kitablarla əvəz etdilər və keyfiyyətli məhsullar təqdim etdilər. Onlar satışları artırmaq üçün əlavə reklam vasitəsi ilə müştəriləri məhsulların keyfiyyəti barədə məlumatlandırdılar.

Fatimə dedi: “Əgər biz prinsiplərimizə sadiq olmasaq, müştərilərimiz bizə etibar etməyəcək. Biz düzgün yoldan çıxmamaqla etibar qazanarıq və uzunmüddətli uğur əldə edərik.”

Ömər dedi: “Biz prinsiplərimizə sadiq olduğumuz üçün, bəlkə də, daha az qazanırıq, amma etibarlı müştəri bazası qururuq. Bu da bizim gələcəkdə daha çox qazanmağımıza kömək edəcək.”

# Əl işi

**Verilmiş məsələyə uyğun cədvəl qurun və həll edin.**

Uşaqlar 978 ədəd kitabdan 108 ədədini yararsız hala düşdüyü üçün stenddən götürdülər. Qalan kitabların satışını 1 həftə ərzində etməli idilər. Satışın ilk günü 118 kitab satılmışdır. 2-ci gün satılan kitabların miqdarı 1-ci gün satılan kitabların miqdarından 2 dəfə az idi. 3-cü gün isə 2-ci günün satışından 10 ədəd çox kitab satıldı. Hər sonrakı gün əvvəlki gündən 10 kitab artıq olmaqla satış davam edərsə, sonuncu gün neçə kitab satılmış olar?

- Satışın 6-cı günü neçə kitab satıldı?
- Uşaqlar satışı 1 həftəyə yekunlaşdıra bilərlər?
- Üz qabığını dəyişdirmək üçün götürdükləri kitabları yenidən bərpa edərək, hər birini 3 manata satarlarsa nə qədər gəlir əldə edərlər?

## Yaradıcı tapşırıq

1. Satışla bağlı elan hazırlayın.

2. Siz də yararsız hala düşmüş köhnə kitabları bərpa edərək stend hazırlayın.

## Nitq quruculuğu

1. Uşaqlara necə təkliflər verə bilərik ki, onların satışı həm keyfiyyətli, həm də qazanclı olsun?
2. Daha çox alıcı cəlb etmək üçün çıxış nitqi hazırlayaraq səhnələşdirin.

Əli və Ömər məktəbdə təşkil edilən kitab yarmarkasında könüllü olaraq çalışırdılar. Onlar bu yarmarkada köhnə kitabları sataraq məktəbə vəsait toplamağa kömək edirdilər. Lakin yarmarkada müştərilərin az olması və kitabların düzgün təşkil olunmaması səbəbindən satışlar çox aşağı idi. Onlar bu problemi həll etmək və satışları artırmaq üçün bir plan hazırlamağa qərar verdilər.

Əli və Ömər bu işə könüllü qoşulmuşdu. Onların işi planlaşdırdıqları kimi getmədiyi üçün çox məyus oldular.

Əli dedi:

- Biz problemi həll etmək üçün müxtəlif yollar düşünməliyik. Əvvəlcə səbəbini araşdırmalı və aradan qaldırmağı qarşımıza məqsəd qoymalıyıq.

Əli və Ömər yarmarkanın cari vəziyyətini analiz etməyə başladılar. Onlar gördülər ki, müştərilər istədikləri kitabları tapmaqda çətinlik çəkirlər. Həmçinin reklamın kifayət qədər təsirli olmadığını və yarmarkanın çox az insan tərəfindən xəbərdar olduğunu anladılar.

Əli dedi: “Biz kitabları düzgün təşkil etməliyik ki, müştərilər istədikləri kitabları asanlıqla tapa bilsinlər. Bunun üçün kitabları kateqoriyalara ayırmalıyıq.”



Ömər razılaşdı: “Bəli, biz kitabları növünə və mövzusuna görə qruplaşdırmalıyıq. Həmçinin daha çox müştəri cəlb etmək üçün reklam strategiyası hazırlamalıyıq.”

Əli və Ömər kitabları kateqoriyalara ayıraraq düzgün təşkil etməyə başladılar. Onlar hər bir kitabı müəyyən bir yerə yerləşdirdilər və hər bir kateqoriyaya uyğun işarələr hazırladılar. Daha sonra yarmarkanın reklamını artırmaq üçün məktəbin müxtəlif yerlərində elanlar asdılar və sosial media vasitəsilə məlumat yaydılar.



Ömər hesablamalar apardı: “Əgər biz hər gün müəyyən sayda  kitabı düzgün təşkil etsək və reklam işimizi tətbiq etsək, yarmarkanın sonuna qədər satışları artıra bilərik.”

Əli və Ömər məqsədyönlü şəkildə işləyərək kitab yarmarkasında satışları artırdılar. Onlar kitabları düzgün təşkil edərək və reklam strategiyasını tətbiq edərək daha çox müştəri cəlb etdilər və yarmarkanın uğurlu olmasını təmin etdilər.



# Əl işi

1. Cədvələ əsasən sərgidə nümayiş olunan kitabların növünə və sayına aid piktoqram yaradın.

| Kitabların adı | Növü | Sayı |
|---|---|---|
| Uşaq ensiklopediyası | Bədii və informativ | 450 |
| Fantastik nağıllar | Bədii | 278 |
| Yumru yumaq | Bədii | 447 |
| Bunları bilmək maraqlıdır | İnformativ | 234 |

2. Sərgidə 25.000 kitab nümayiş etdirildi. Bu kitabların $\frac{3}{5}$ -ü fantastik, $\frac{4}{25}$ -ü ensiklopediya, qalanları elektron və xalq nağılları kitabı idi. Əgər qalan kitabların $\frac{6}{20}$ -sı elektron kitabdırsa, neçə kitab xalq nağılıdır?

3. Kitab vitrini düzəltmək üçün uzunluğu 5 m, eni isə bunun $\frac{1}{2}$-i qədər olan taxta tələb olunur. Rəfin dərinliyi 50 sm olarsa, vitrin hazırlamaq üçün nə qədər taxta lazım olar? 1 $m^2$ taxtanın qiyməti 55 qəpikdirsə, bu vitrinə cəmi neçə manat xərclənər?

1. Əvvəlcə kitab sərgisi üçün maraqlı rəflər hazırlayaq. Sizcə rəfləri necə hazırlasaq alıcıların diqqətini cəlb edə bilərik?
2. Hər biriniz daha maraqlı, cəzbedici və gözoxşayan pankart, broşürlər və elanlar hazırlayın. İnsanların sərgiyə cəlb olunması üçün elanlarda kitab müəllifləri ilə görüşlər haqqında qeydlər edin.

## Nitq quruculuğu

1. Kitablar haqqında təqdimat hazırlayaraq sərgidə yoldaşlarınızın önündə çıxış edin .
2. Sərgi bitəndən sonra daha çox satılan və əldə olunmuş vəsait haqqında məruzə hazırlayaraq məktəb rəhbərliyinə təqdim edin.

## Ev tapşırığı:

Əli və Ömərə insanları sərgiyə cəlb etmək üçün media vasitəsi ilə maraqlı videoçarx hazırlamağa yardım edin.

Ömər məktəbin qəzet redaktorlarından biri idi. O, məktəb qəzetindəki məqalələri redaktə edirdi. Bir gün qəzetin çap edilməsinə bir neçə saat qalmış baş redaktor xəstələndi. Bu səbəbdən qəzetin son redaktəsini etmək məsuliyyəti Ömərin üzərinə düşdü.




Ömər həyəcanını idarə etməli və məqalələrin redaktə olunması, vaxtında çap edilməsi üçün zamanı düzgün idarə etməli idi. Ömər tez bir zamanda hər bir məqalənin yerini və çap üçün lazım olan vaxtı hesablayaraq bir cədvəl hazırladı.

O, hər bir məqalənin redaktə edilməsinə, yerləşdirilməsinə nə qədər vaxt lazım olduğunu diqqətlə hesabladı.






Ömər müstəqil qərarvermə bacarığına görə vaxtında işini bitirdi. 85 nüsxədən ibarət qəzeti vaxtında çap etdirdi.

# Əl işi

1. Ömərin səhifələr üzrə etdiyi dəyişiklikləri cədvəl üzrə təqdim edin.
Hər səhifəni redaktə etmək üçün nə qədər zaman lazım olduğunu hesablayın.

Qəzet 4 səhifədən ibarətdir. Məqaləyə 1 söz əlavə etmək üçün 8 saniyə, məqalədən 1 söz silmək üçün 3 saniyə, 1 nüsxənin çap olunması üçün 25 dəqiqə lazımdır.

- I səhifədə 4 söz silinməli, 3 söz əlavə olunmalıdır.
- II səhifədə 5 söz silinməli, 5 söz əlavə olunmalıdır.
- III səhifədə 23 sözlük mətn silinməlidir.
- IV səhifəyə 37 sözdən ibarət mətn əlavə olunmalıdır.

2. Ümumi redaktə və çap üçün nə qədər zaman lazımdır? Zaman çevirmələrindən istifadə edin.

3. Bir qəzetin çap edilməsi üçün büdcədən 5 manat maliyyə sərf olunur. Ömər qəzetin redaktə edilməsinə ciddi yanaşmayaraq məqalələr səhv dərc edilsəydi və ya yenidən səhvlər düzəldilərək çap olunsaydı nə qədər maliyyə itkisinə səbəb olardı?

## Yaradıcı tapşırıq

Əvvəlki aylarda çıxan məktəb qəzetinin birini götürün. Mətnlər üzərində söz, cümlə, mövzu dəyişiklikləri edin. İşə başlamamışdan öncə zamanı düzgün planlaşdırın. Redaktə zamanı sərf etdiyiniz vaxtı hesablayın. Yoldaşlarınızla birgə məktəb qəzetində dəyişikliyə sərf etdiyiniz zamanı hesablayın.

# Nitq quruculuğu

1. Aşağıdakı sualları cavablandıraraq təqdimat hazırlayın.

a. Qəzetdə nə üçün bu dəyişiklikləri etməyə ehtiyac duydunuz?

b. Məktəb qəzetinin redaktə olunmuş halı ilə redaktə olunmamış halı arasında olan fərqi Power Point proqramında təqdim edin.

c. Ömər müstəqil qərar vermək üçün özündə hansı bacarıqları formalaşdırmışdı?

Təşkilatlanan Tədbirli

Aişə məktəbin teatr klubunun səhnə dekorasiyalarını hazırlamaqla məşğul idi. Məktəbin illik tamaşası yaxınlaşırdı və Aişə səhnə dekorasiyalarını vaxtında hazırlamaq üçün böyük məsuliyyət hiss edirdi. O, səhnə dekorasiyaları üçün bütün materialları və alətləri yoxladı.





O, əmin idi ki, hər şey qaydasındadır. Lakin tamaşanın başlamasından bir gün əvvəl onun istifadə etdiyi bəzi materiallar tükəndi. Təchizatçıdan yenilərini almağa isə vaxtı yox idi. Aişə dərhal hərəkətə keçdi və ehtiyatlı olmağın nə qədər vacib olduğunu başa düşdü. O, digər klub üzvlərindən kömək istədi. Onlar lazım olan boya və yapışdırıcıları taparaq dekorasiya tərtibatında istifadə etdilər.


Aişə səhnə dekorasiyalarını vaxtında hazırladı. O bu təcrübədən dərs çıxardı. Gələcəkdə hər bir tədbir üçün ehtiyat materiallarını və alətlərini əvvəlcədən hazırlamaqla hər hansı bir problemin qarşısını ala biləcəyini öyrəndi.
Səhnə dekorasiyalarını tamamlamaq üçün əlavə material lazımdır.

## Əl işi

1. Cədvələ əsasən sualları cavablandırın.

a. Dekorasiya üçün hansı xərclər dəyişən, hansı xərclər dəyişməyəndir?

b. Hansı həftədə xərclər daha çoxdur?

c. Hansı həftədə xərclər daha azdır?

d. Aişənin 3 həftə üçün ümumi xərcləri nə qədərdir?

e. Aişənin 1-ci həftə üçün olan xərclərini növbəti 2 həftə üçün olan xərcləri ilə müqayisə edin.

| **Xərclər** | **I həftə** | **II həftə** | **III həftə** |
|---|---|---|---|
| İşıqlanma vasitələri | 15 manat | 15 manat | 15 manat |
| Boya | 32 man. 70 qəp. | 15 man. 50 qəp. | 30 manat |
| Yapışdırıcılar | 14 manat | 14 manat | 14 manat |
| Şarlar | 12 man. 50 qəp. | 15 man. 10 qəp. | 10 manat |

## Nitq quruculuğu

1. Tədbirli insan necə olmalıdır?

2. Aişə düşdüyü çətin vəziyyətdən hansı nəticəni çıxartdı?

3. Siz Aişənin yerində olsaydınız nə edərdiniz?

Dərs 10

Təşkilatlanan Məsuliyyətli

Aişə və Fatimə məktəbin mədəniyyət klubunun fəal üzvləri idilər. Onlar məktəbin müxtəlif tədbirlərini təşkil edir və idarə edirdilər. Bu dəfə məktəbin böyük illik mədəniyyət festivalını təşkil etmək vəzifəsi onların üzərinə düşdü. Bu festival məktəbin ən vacib tədbirlərindən biri idi. Onlar hər şeyin qüsursuz olmasını təmin etmək üçün çox çalışmalı idilər.



Festivaldan bir gün əvvəl, Aişə və Fatimə bütün hazırlıqları yoxlamağa başladılar. Onlar tədbirin proqramını, səhnə dekorasiyalarını, qonaqların siyahısını və digər bütün detalları nəzərdən keçirdilər. Lakin bəzi sənətçilərin vaxtında gələ bilməyəcəyi və bəzi avadanlıqların işləmədiyi məlum oldu.

Fatimə və Aişə dərhal hərəkətə keçdi. Sənətçilərlə əlaqə saxlayaraq onların gecikəcəkləri halda alternativ çıxış yolları tapdılar. Həmçinin digər məktəb üzvlərindən kömək istəyərək avadanlıqların təmir edilməsini təmin etdilər.

Aişə və Fatimə hər bir məsələnin həllini diqqətlə planladılar.

Onlar tədbirin uğurla keçməsi üçün lazım olan vaxtı hesabladılar və buna uyğun cədvəl hazırladılar.

Aişə və Fatimə məsuliyyətli şəkildə hərəkət edərək tədbiri düzgün planladılar və tədbirin uğurla keçməsini təmin etdilər.



# Əl işi

1.

| İştirak edəcək olan sənətçilər | |
|---|---|
| Yazar | Dəyanət Kazımov |
| Yazar | Həsən Həsənov |
| Rejissor | Səlim Əfəndiyev |
| Naşir | Anar İslamov |
| Redaktor | Fərhad Quliyev |

Tədbir saat 14:00-da başlamalıdır və ilk yarım saat giriş hissəyə ayrılmışdır. Ardınca sənətçilərin hər birinə 20 dəqiqəlik çıxış üçün vaxt ayrılmışdır. Sənətçilərdən yazar Həsən Həsənov 1 saat 20 dəqiqə, naşir Anar İslamov isə 1 saat 5 dəqiqə gecikəcəklərini bildirdilər. Gecikmələri nəzərə alaraq onların səhnəyə çıxma ardıcıllığına aid bir neçə cədvəl tərtib edin.

2. Səhnənin dekorasiyası üçün ödəniləcək xərcləri hesablamaqda uşaqlara siz də kömək edin. Səhnə dekorasiyası üçün 1000 manat pul ayrılmışdı. Ölkəmizin mədəniyyətini təmsil edəcək olan guşənin hazırlanması 349 manat, tədbirin adı yazılmış banner lövhə 160 manat, kitablarla bəzədilmiş guşə isə199 manat dəyərində idi. Əlavə qalan məbləğə isə onlar şarlar və güllər almalı idilər. Uşaqlar qərarlaşdırdılar ki, şarlara 30 manat ayırsalar, qalan pulla iştirak edən sənətçilərə gül buketi təşkil edə bilərlər.

a. Uşaqların gül buketi üçün nə qədər vəsaitləri qaldı?

b. Hər sənətçiyə (5 sənətçi) 40 manat dəyərində gül buketi təşkil etsələr, neçə manat artıq qalar?

c. Artıq qalan pula məktəb üçün dəyəri 70 manat olan dəyirmi masa ala bilərlərmi?

## Yaradıcı tapşırıq

1. Avadanlıqları xərc etmədən necə təmir edə bilərlər?
2. Bəs siz uşaqlara hansı çıxış yolları təklif edərdiniz?
3. Festivalla bağlı afişa hazırlayın. Həmin afişaya əsasən festival planı yazın.

## Nitq quruculuğu

Festivalın açılışı üçün çıxış nitqini hazırlamağı sizə tapşırıblar. Bununla bağlı çıxış nitqi hazırlayın və təqdim edin.

Təşkilatlanan Ünsiyyətcil

Əli məktəbin idman klubunun kapitanı idi. O, çox bacarıqlı idi. Onun vəzifəsi komandanın məşqlərini təşkil etmək və məktəblərarası yarışları hazırlamaq idi. Lakin bir gün komanda üzvləri arasında anlaşılmazlıq yarandı və bu komandanın fəaliyyətinə mənfi təsir etdi. Əli bu problemi həll etmək və komandanın birlikdə çalışmasını təmin etmək üçün yol tapmalı idi.






Məşqlər zamanı komanda üzvləri arasında münaqişə yarandı. Bəziləri məşqlərin çox çətin olduğunu bəhanə edir, digərləri isə məşqlərin kifayət qədər ciddi olmadığını düşünürdülər. Əli komanda üzvləri ilə söhbət etdi, onları dinləyib anlamağa çalışdı. Toplantıda Əli komandanın üzvlərini bir araya gətirdi. Hamının ortaq həll yolu tapmasına kömək etdi. O hər kəsin fikrini dinləyərək daha balanslı və effektiv bir məşq hazırladı.



Bu hekayə Əlinin ünsiyyətcil olaraq və planlı hərəkət edərək, necə uğur qazanacağını göstərir. Ünsiyyətcil olmaq və doğru planlama ilə hər bir problemi həll etmək mümkündür.

# Əl işi

1. Məşqlər 30 dəqiqə davam edir və 5 dəqiqə fasilə olunur. Saat 09:00-da başlanan məşq saat 10:40-da bitərsə, neçə məşq keçirilmişdir? (Vaxtı saat və dəqiqə ilə ifadə edin)

2. Əli və Ömər qaçış yarışı edirlər. Əli daxili dairədə qaçır. Ömər isə xarici dairədə qaçır. Ömər Əlidən sürətli qaçır. Ancaq uduzur. Bunun səbəbini necə izah edə bilərsiniz?

3. Komanda üzvlərinin sayı n saydadır. Hər üzv 3 effektiv rəy irəli sürərsə, hərfi ifadəni qurun.

4. n=16 ; n=18 olarsa, cəmi neçə fikir irəli sürülmüş olar?

5. Komandada 18 qız və 16 oğlan var. Qızların $\frac{3}{6}$-ü, oğlanların $\frac{3}{4}$-ü daha fəaldır.

Bu məlumatı qrafik diaqramda yaxud piktoqramda təsvir edin.

## Yaradıcı tapşırıq

1. Toplantıya komandanın qatılması üçün maraqlı, kreativ reklam və afişa hazırlayın.

2. Siz də daha effektiv məşq planı hazırlamaq üçün araşdırma aparın və müzakirə edərək Əliyə məsləhət məktubu yazın.

3. Uğur gətirəcək komanda üzvlərinə hədiyyələr hazırlayın və fəaliyyətlərini mükafatlandırın.

## Nitq quruculuğu

1. Əgər Əli ünsiyyəti yaxşılaşdırmasaydı nələr baş verərdi?

2. Uğur qazanmaq üçün ünsiyyətin formalaşmasına təsir edən hansı amillər var?

## Təşkilatlanan İntizamlı

Aişə, Əli, Ömər və Fatimə məktəbin "Azərbaycan Mədəniyyətinə İrs Günü" tədbirini təşkil etməklə məşğul idilər. Bu tədbir Azərbaycanın zəngin mədəniyyətini və milli dəyərlərini nümayiş etdirmək üçün böyük bir imkan idi. Onlar bu tədbirdə milli geyimlər, musiqi, rəqs və yeməklərlə bağlı müxtəlif stendlər hazırlamalı idilər. Hər birinin öz vəzifəsi var idi və hər şeyin mükəmməl olmasını təmin etmək üçün intizamlı olmaq vacib idi. Lakin tədbirin başlanmasına az müddət qalmağına baxmayaraq verilən tapşırıqlar hələ də yerinə yetirilməmişdir. Axı, onlar söz vermişdilər ki, Azərbaycan mədəniyyətini yüksək səviyyədə təbliğ edəcəklər.

Uşaqlar intizamlı olaraq hər bir işi dəqiq planlaşdırdılar və hər kəsə aid olan vəzifənin yerinə yetirməsini təmin etdilər. Əli təklif etdi ki, cədvəl hazırlayaraq hər işin yerinə yetirilməsinə sərf edilən vaxtı da qeyd etsinlər.





Aişə, Əli, Ömər və Fatimə intizamlı şəkildə hərəkət edərək, tədbirin uğurla keçməsini təmin etdilər. Onlar milli geyimləri vaxtında əldə etdilər, musiqi avadanlıqlarını düzgün quraşdırdılar və yeməkləri vaxtında hazırladılar. Tədbirdə milli musiqi sədaları altında rəqslər edildi, milli geyimlər nümayiş olundu.

Azərbaycan mətbəxinin ləziz təamları təqdim edildi. Qonaqlar nümayiş etdirilən milli yeməklərin dadına baxıb fikirlərini söylədilər.

Uşaqlar intizamlı və planlı hərəkət edərək, Azərbaycan mədəniyyətini və dəyərlərini uğurla nümayiş etdirdilər.

# Əl işi

1. Milli geyimlər üçün ornamentlər hazırlayın.

2. Ömər musiqi alətlərində nasazlıq olduğunu gördü və bu işi vaxtında çatdırmaq üçün əlavə kömək çağırdı. Sizcə, tədbir zamanı musiqi alətlərində hansı texniki nasazlıqlar ola bilər? Bu halların olmaması üçün hansı alqoritmləri qurardınız?

3. 4[a] sinif şagirdləri milli yeməklərimizdən olan plov hazırlamağı qarşılarına məqsəd qoydular. 4[a] sinfində 24 şagird oxuyur. Onlar 4 nəfər üçün 400 qr düyü , 100 qr yağ, 300 qr ət, 100 qr ərik qurusu, 100 qr şabalıd, 50 qr kişmiş lazım olduğunu bilirdilər. Verilmiş cədvələ əsasən 24 şagird üçün hazırlanan plova nə qədər xərc çəkilər?

| **Ərzaqlar (kq)** | **Qiyməti** |
|---|---|
| Düyü | 4 manat 80 qəpik |
| Yağ | 16 manat |
| Ət | 17 manat |
| Ərik qurusu | 14 manat 70 qəpik |
| Şabalıd | 12 manat 60 qəpik |
| Kişmiş | 8 manat 40 qəpik |

## Nitq quruculuğu

1. Tədbirin planını təqdim edin.

2. Tədbir zamanı yarana biləcək problemlərin aradan qaldırılması üçün görülmüş işləri izah edin.

**Təşkilatlanan** Əməkdaşlıq etməyi bacaran



Aişə, Əli, Ömər və Fatimə məktəbin debat klubunun fəal üzvləri idilər. Onlar məktəblərarası böyük bir debat müsabiqəsinə hazırlaşırdılar. Bu müsabiqə Azərbaycanın milli dəyərlərini və mədəniyyətini əks etdirən mövzular üzərində qurulmuşdu. Onların məqsədi məktəbi ən yaxşı şəkildə təmsil etmək idi.

Müsabiqəyə bir neçə gün qalmış bəzi problemlər ortaya çıxdı. Aişə və Fatimə mövzulardan birinin çox çətin olduğunu və hazırlaşmaq üçün vaxtlarının kifayət etmədiyini anladılar.

Eyni zamanda Əli və Ömər təqdimat avadanlıqlarının düzgün işləmədiyini və bəzi mənbələrin çatışmadığını aşkar etdilər.

Aişə, Əli, Ömər və Fatimə əməkdaşlıq edərək, debat müsabiqəsinə uğurla hazırlaşdılar. Onlar texniki problemləri həll etdilər, çatışmayan mənbələri tapdılar və çətin mövzu üzərində uğurla çalışdılar. Kompüter və ağıllı lövhə vasitəsilə qardaş Türkiyə məktəbliləri ilə telekörpü yaratdaraq, Azərbaycanın milli dəyərləri haqqında debat təşkil etdilər.

Beləliklə, şagirdlər müsabiqədə Azərbaycan mədəniyyətini və dəyərlərini gözəl bir şəkildə təqdim edərək, öz məktəblərini ən yaxşı şəkildə təmsil etdilər.



# Əl işi

1. Uşaqlar telekörpü yaratmaq üçün sinif otağına ağıllı lövhə yerləşdirmək qərarına gəldilər. Hündürlüyü 3 m, eni 6 m olan sinif otağının divarına eni 2 m, uzunluğu 180 sm olan ağıllı lövhə asılarsa, həmin divarda boş qalan sahəni hesablayın.

2. Layihə üçün hər birinin qiyməti 850 manat olan 7 ədəd proyektor, hər birinin qiyməti 35 manat olan 6 ədəd səsucaldan, qiyməti 2456 manat olan 3 ədəd ağıllı lövhə, 23 manat olan 4 ədəd mikrofon almağı nəzərdə tutdular. Bunları almaq üçün 20000 manat pul çatarmı?

3. Siz təqdimat zamanı hansı avandanlıqlardan istifadə edərdiniz? Sorğu vərəqlərində qeyd edin.

## SORĞU VƏRƏQİ

| **Texniki avadanlıqlar** | **Bəli** | **Xeyr** |
|---|---|---|
| Ağıllı lövhə | | |
| Mikrofon | | |
| Proyektor | | |
| Səsucaldan | | |

## Nitq quruculuğu

Debat: Bütün türkdilli xalqların milli mədəniyyətləri bir-birinə bənzəyir.

## Ev tapşırığı:

Növbəti həftə milli dəyərlər haqqında rəsm sərgisi və videoçarx hazırlayın.

Dərs
14

**Təşkilatlanan** Çalışqan

Aişə və Fatimə məktəbin kitabxanasında könüllü olaraq çalışırdılar. Onların vəzifəsi kitabxananın kataloq sistemini yeniləmək və kitabların düzgün təşkil olunmasını təmin etmək idi. Bu iş çox zəhmət tələb edirdi və kitabxananın yenidən təşkil olunması üçün uzun müddət  lazım idi. Onlar bu işi düzgün yerinə yetirmək üçün məsuliyyət və səbirlə çalışmalı idilər.



Kitabxanada işə başlayandan bir neçə gün sonra  Aişə və Fatimə bəzi problemlərlə qarşılaşdılar. Onlar bu problemləri həll etmək üçün plan hazırladılar. Plana əsasən köhnəlmiş rəflər yenilənməli, kitablar janrına görə qruplaşdırılmalı, kitab kataloqları əlifba sırasına görə yerləşdirilməlidir. Bundan əlavə Aişə və Fatimə istifadəsi tam yararsız kitabları ayırmağı, cırılmış kitabların cildlərini və vərəqlərini yapışdırmağı, daha sonra elektron kitabxana yaratmağı qərarlaşdırdılar.



Aişə və Fatimə hər gün məktəbdən sonra bir neçə saat kitabxanada çalışaraq iki həftə ərzində kitabxananın kataloq sistemini yenilədilər. Onlar hər bir kitabı kataloqlara görə düzgün yerləşdirdilər, itmiş kitabları tapdılar və kitabxananın rəflərini yenidən qaydasına saldılar.

Kitabxananın yeni sistemi şagirdlərin kitabları daha asan tapmasına və istifadəsinə imkan yaratdı.

# Əl işi

1. Fatimə günə 4 saat işləməklə tapşırılan işi 12 günə yerinə yetirir. Bu işi gündə 6 saat işləyərək neçə günə yerinə yetirər?

2. Fatimə və Aişə istifadəyə yararsız kitabları təkrar emala təhvil vermək qərarına gəldilər. Əldə olunmuş vəsaitin hesabına ağac alıb məktəbin həyətində əkməyi qərarlaşdırdılar. 1 ton kağız məhsulu üçün 80 manat ödəniş edilməlidir. 1 ağacın qiyməti 5 manat 45 qəpik olarsa, yarım tondan əldə edilmiş vəsaitdən ən çox neçə ağac alıb əkmək olar?

## Yaradıcı tapşırıq

Hazır olmuş kitab rəflərinə uyğun rəngli və gözoxşayan başlıqlar hazırlayın.

## Nitq quruculuğu

Planlı hərəkət etməklə uğur əldə etməyin yollarını əks etdirən təqdimat hazırlayın.

## Ev tapşırığı:

Müxtəlif iş adamlarına məktəbinizin kitabxanasına dəstək olmaları üçün müraciət nitqi hazırlayın.

Əli və Ömər  məktəbin idman klubunun liderləri idilər. Onların əsas vəzifəsi məktəbin müxtəlif idman tədbirlərini təşkil etmək və idman inventarının düzgün istifadəsini təmin etmək idi. Son vaxtlar məktəbin futbol komandası ilə bağlı bəzi problemlər ortaya çıxdı. Komandanın formaları köhnəlmişdi və yeni formalar almaq üçün kifayət qədər vəsait yox idi.

Əli və Ömər futbol komandasının formalarını yeniləmək üçün məktəbdən əlavə vəsait istəmək qərarına gəldilər. Lakin məktəb büdcəsi məhdud idi və bu istəyi qəbul etmək mümkün olmadı. Onlar başqa yollarla bu problemi həll etmək qərarına gəldilər və təşəbbüskar olmağa başladılar.



Əli məktəbdə xeyriyyə tədbiri etməyi düşündü. Ömər isə müxtəlif sponsorlarla əlaqə saxlamaq fikrini irəli sürdü. Onlar formalar üçün pul toplamağın yollarını düşündülər:

1. Könüllü olaraq valideynlərdən yardım istəyə bilərlər.
2. Xeyriyyə yarmarkasını təşkil edə bilərlər.

Yarmarkada 4-cü, 5-ci, 6-cı sinif şagirdlərinin əl işləri satışa çıxarılacaq. Əldə olunan vəsaitlə idmançıların formaları təzələnəcək.


FUTBOL KLUBU
ZİRƏ

Əli və Ömər hər gün dərsdən sonra bir neçə saat müxtəlif sponsorlarla görüşlər keçirdilər. Futbol komandasına dəstək üçün sponsorluq təklifləri hazırladılar. Onlar həmçinin xeyriyyə tədbirinin təşkilini planladılar. Müxtəlif fəaliyyətlər üçün cədvəl hazırladılar.




Əli və Ömərin təşəbbüskarlığı nəticəsində onlar bir neçə yerli iş adamı və şirkətdən sponsorluq əldə etdilər. Həmçinin təşkil etdikləri xeyriyyə tədbirində məktəbin futbol komandası üçün kifayət qədər vəsait toplanıldı. Onlar yeni formalar alaraq komandanın ehtiyaclarını qarşıladılar. Məktəbin idman klubunun nüfuzu yüksəldi.

**Təşəbbüskar olaraq düzgün planlama ilə hər bir problemi həll etmək mümkündür.**

# Əl işi

1. Futbolçulara ağ və qara rəngdə olmaqla cəmi 44 m parça lazımdır. Ağ parça qara parçadan 8 m çoxdur. Ümumi olaraq bu parçalara 270 manat 60 qəpik pul istifadə olundu. Ağ parçanın qiyməti 7 manat 50 qəpik olarsa, qara parçanın qiyməti nə qədərdir?

2. Xeyriyyə tədbirində iştirak edən böyüklər üçün bilet 3 manat, uşaqlar üçün bilet 2 manatdır. 3 sıranın hər birində 12 nəfər olmaqla böyüklər, 4 sıranın hər birində 9 nəfər olmaqla uşaqlar əyləşdilər.

a. Xeyriyyə tədbirindən nə qədər vəsait toplandı?

b. 1 futbolçu paltarının topdan satış qiyməti 30 manatdır. Xeyriyyə tədbirindən toplanmış vəsaitə neçə idmançı kostyumu almaq olar?

## Yaradıcı tapşırıq

1. Xeyriyyə tədbiri keçirmək üçün elan hazırlayın. Satış üçün bəzək əşyaları, əl işləri, rəsmlər və süni güllər hazırlayın.

2. Futbol komandasına vəsait toplamaq üçün fəaliyyət planı hazırlayın.

3. Komandaların geyimlərinin daha cəlbedici olması üçün yeni modellər fikirləşin. Şəkillərini çəkərək, müsabiqə təşkil edin.

## Nitq quruculuğu

Başqa hansı məqsədlə xeyriyyə tədbirləri keçirmək olar?

**Təşkilatlanan** Lider

Əli məktəbin robot texnologiyaları klubunun üzvü idi. Onun əsas vəzifəsi komandanın bir hissəsi kimi robot texnologiyaları ilə bağlı layihələrdə iştirak etmək idi. Məktəblərarası robot yarışmasına bir neçə həftə qalmış komanda ciddi problemlərlə üzləşdi. Onların əsas layihə robotu düzgün işləmirdi və vaxt azaldıqca narahatlıqları artırdı.

Robot yarışmasına bir neçə həftə qalmış komandanın əsas layihə robotunda texniki nasazlıqlar meydana gəldi. Robot bəzi funksiyaları yerinə yetirmirdi və komanda üzvləri bu problemi həll etməkdə çətinlik çəkirdilər. Həmçinin komandanın kapitanı xəstələndi və layihəni idarə etməkdə çətinliklər yarandı. Bu vəziyyət komandanın effektivliyini azaldırdı.



Əli düşündü: “Biz bu problemi həll etmək üçün birlikdə işləməliyik”.

Əli problemin həllində təşəbbüs göstərməyə və komandanı təşkil etməyə başladı. O hər bir komanda üzvünün fikirlərini dinləyərək problemin həllinə dair təkliflər aldı. Əli hər bir təklifin üstünlüklərini və çatışmazlıqlarını diqqətlə analiz etdi və komanda ilə birlikdə ən yaxşı həll yolunu seçdi. Əli nasaz robotu uşaqlarla birlikdə sökərək işlək olmayan hissəni müəyyən etdilər. Ömər dedi: “Əgər biz robotun mexanizmini yenidən nəzərdən keçirsək və lazımi düzəlişləri etsək problem həll ola bilər”. Fatimə əlavə etdi: “Biz proqram təminatını da yeniləməliyik ki, robot daha səmərəli işləsin ”.

Əli hər bir tapşırığın vaxtını və resurslarını diqqətlə planladı. O hər bir mərhələnin nə qədər vaxt alacağını və kimlərin hansı işi yerinə yetirəcəyini dəqiq hesabladı və buna uyğun bir cədvəl hazırladı. Hər gün işlərin gedişatını izləyərək lazım olan düzəlişləri etdi. Əli hər bir komanda üzvünün işinə nəzarət etməklə yanaşı onların ehtiyaclarına diqqət yetirdi və motivasiyalarını artırmağa çalışdı.

Əli düşündü: “Əgər mən hər bir işi diqqətlə planlasam və hər kəsin işini düzgün yönləndirsəm, robotun nasazlıqlarını vaxtında həll edə bilərik”.



# Əl işi

1. Robotun giriş qurğusunda texniki nasazlığı aradan qaldırmaq üçün usta 45 dəqiqə işləyir, 15 dəqiqə dincəlir. Bu hesabla 09:00-da başlayıb 12:00-da işini yekunlaşdıran usta neçə dəqiqə işləmiş olur?

2. Robot 1 dəqiqədə 72 qutu paketləyir. Texniki nasazlıq nəticəsində robotun işi zəifləyərək 5 dəqiqədə 60 qutu paketləyərsə, robotun işi neçə dəfə azalar?

## Yaradıcı tapşırıq

Konstruktorun köməyi ilə robot hazırlayın. Bu robot əyləncəli performans təqdim edə bilərmi?

## Nitq quruculuğu

1. Hansı peşə üzrə lider olmaq istəyərdiniz? Lider olmaq üçün hansı bacarıqlarınız olmalıdır?

2. “Mən lider olsaydım” adlı esse yazın və təqdim edin. Ən çox bəyənilən esse məqalə şəklində məktəb qəzetində, sosial mediada işıqlandırılsın.

## Ev tapşırığı:

Əliyə işinin planlı həyata keçirilməsi üçün hansı səmərəli təklifləri irəli sürərdiniz? Bu təkliflərə əsasən planlama cədvəli hazırlayın və təqdim edin.

**Yaradıcı** Tədqiqat

Bir gün Fatimə ailəsi ilə kənddə yaşayan və kiçik bir bal istehsalı ilə məşğul olan nənəsinə baş çəkdi. Nənəsi Fatiməyə bu il bal satışının azaldığını və bu səbəbdən maliyyə çətinlikləri yaşadığını dedi. Fatimə nənəsinin bu problemini həll etmək üçün tədqiqat aparmağa qərar verdi.

O, nənəsinin bal istehsalı və satışı prosesini diqqətlə izlədi. Balın keyfiyyətində, qablaşdırılmasında və qiymətində heç bir problem olmadığını gördü. Lakin bal satışının və müştəri marağının azaldığını anladı. Fatimə vəziyyəti analiz edərək digər satıcıların öz ballarını daha yaxşı qablaşdırdığını, balın marketinqinə xüsusi diqqət ayırdıqlarını müşahidə etdi. Bundan başqa bəzi müştərilərin qiymətlərin yüksəkliyindən narazı olduğunu aydınlaşdırdı.



O, qərara gəldi ki, bal daha cazibədar qablaşdırmada və bir az aşağı qiymətə təqdim edilərsə, satışları artırmaq olar.

Fatimə ilk olaraq kənddə və yaxın qəsəbələrdə digər bal satıcıları ilə əlaqə saxladı. O, digər satıcıların balını necə təqdim etdiklərini, hansı qiymətlərlə satdıqlarını və müştəriləri necə cəlb etdiklərini öyrənməyə çalışdı. Fatimə müştərilərlə də kiçik bir sorğu keçirdi.




Beləliklə, əldə etdiyi məlumatlarla Fatimənin etdiyi dəyişikliklərdən sonra nənənin bal satışları artdı və müştərilər yenidən nənənin balına maraq göstərdilər.


BAL

# Əl işi

1. Fatimə 1 kq balın qiymətini 30 manatdan 25 manata endirdikdən sonra onun qablaşdırılması üçün əlavə vəsaitləri hesabladı. Bunun üçün ona pətək görüntülü 500 qr-lıq (2 manat) və 1 kq-lıq (3 manat) balon, Fatimənin özünün dizayn etdiyi üzlük (2 manat 50 qəpik) lazımdır.

a. Fatimə 500 qr-lıq 1 balon balın satışından nə qədər gəlir əldə edər?

b. Fatimə 1 kq-lıq 2 balon balın satışından əldə etdiyi qazanc 500 qr-lıq 4 balon balın satışından əldə etdiyi qazancdan nə qədər çoxdur?

1. Bal qablaşdırmasının şəklini çək:
   a.Qablaşdırmada hansı təsvirə yer verərdiniz?
   b.Qablaşdırmanın üzərində hansı ifadə alıcı üçün cəlbedici ola bilər?
   c.Sizcə, qablaşdırmada hansı rənglərdən mütləq istifadə edilməlidir?

2. Müştərilərin Fatimənin nənəsindən niyə bal almadığını öyrənmək üçün sorğu hazırlayın.

**Nümunə:**

| **Sual** | **Bəli** ✓ | **Xeyr** ✗ | **Qeyd** |
|---|---|---|---|
| Balın keyfiyyətindən razısınız? | | | |
| Balın qablaşdırılması sizi qane edir? | | | |
| Balın qiyməti münasibdir? | | | |
| Bal istehsalçısına nə təklifiniz ola bilər? | | | |

## Nitq quruculuğu

1. Sizcə, tədqiqat aparmağın həyatımızda nə kimi əhəmiyyətli rolu var?

2. Tədqiqat zamanı başqalarının təcrübəsindən yararlanmaq doğrudurmu? Fikrinizi əsaslandırın.

Yaradıcı Açıqfikirli

Aişəgilin şəhərin mərkəzində kiçik bir kafeləri var idi. O, valideynlərinə kafeni idarə etməkdə kömək edirdi. Son vaxtlar kafeyə gələn müştərilərin sayı azalmışdı. Bunun səbəbi yaxınlıqda yeni açılan məşhur bir kafe idi. Aişə kafenin gəlirlərini artırmaq və müştəriləri geri qazanmaq üçün nə isə etməli idi.

O, cari vəziyyəti analiz etməyə başladı. Yeni açılan kafelərin daha cəlbedici menyusu və müasir dekorasiyası ilə müştəriləri cəlb etdiyini gördü. Bəzi müştərilərin yenilik və fərqlilik axtardığını da başa düşdü.



Aişə valideynləri ilə yeni ideyalarını paylaşdı. Onların razılığı ilə kafenin menyusunu yenilədi. Menyuya milli mətbəximizə üstünlük vermək şərti ilə yeni və fərqli təamlar əlavə edildi. Kafenin interyeri yeniləndi, dekorasiyada yerli sənət əsərlərindən, Azərbaycan milli naxışlarından istifadə edildi.

Həftəiçi milli mətbəx yeməkləri ilə milli musiqi nümunələrini dinləmək, həftəsonu milli filmləri izləyib müzakirə saatına qoşulmaq da təklif olunurdu. Həmçinin həftəsonu müştəriyə pulsuz içki və çərəzlər verilirdi. Buna görə həftəsonu qiymətləri həftəiçi qiymətlərindən fərqlənirdi.



Aişənin yeni yanaşması sayəsində kafenin müştəriləri yenidən artmağa başladı. Xüsusən xarici turistlər üçün kafedəki yeniliklər maraq doğurdu. Beləliklə, müxtəlif ideyaları və yeni fikirləri tətbiq etməklə hər bir problemi həll etmək mümkündür.

# Əl işi

1. Tərlan ailəsi ilə çərşənbə günü kafeyə gedərkən atası Şəki pitisi və dolma, anası dovğa və fisincan plov, qardaşı və bacısı hər ikisi düşbərə sifariş etdilər.
   a. Eyni yeməkləri Tərlangil bazar günü də sifariş etsələr, iki gün birlikdə ailənin xərci nə qədər olar?
   b. Şənbə günü kafeyə gedən ailə çərşənbə günü ilə eyni məbləğdə pul ödəyərsə, ailə üzvlərinin yeyə biləcəkləri yeməklər hansılar ola bilər?

| **Yeməklər** | **Həftəiçi qiymət** | **Həftəsonu qiymət** |
|---|---|---|
| Dolma | 11 manat | 13 manat |
| Fisincan plov | 16 manat | 19 manat |
| Şah plov | 20 manat | 23 manat |
| Gəncə dovğası | 3 manat | 4 manat |
| Xəngəl | 10 manat | 14 manat |
| Düşbərə | 10 manat | 12 manat |
| Kabab | 21 manat | 23 manat |
| Şəki pitisi | 10 manat | 11 manat |

## Yaradıcı tapşırıq

Kafe üçün menyu hazırlayın:
- Menyuya hansı milli yeməkləri əlavə edəcəyinizi dəqiqləşdirin, yeməklərin aid olduğu bölgəyə aid kiçik məlumat və ya şəkil əlavə edin.
- Ön səhifədə müştərinin diqqətini cəlb edəcək maraqlı bir ifadə yerləşdirin.

# Nitq quruculuğu

a. Yenilik etmək hər zaman uğurlu ola bilərmi?
b. Sizcə, valideynlər Aişəni dəstəkləməkdə haqlı idilər?
c. Siz Aişəyə yenilik etməkdə necə kömək edərdiniz?
d. Sinifdə debat təşkil edin.

**Müzakirə sualı:**

Sizcə, Aişənin kafesinə həftəiçi yoxsa həftəsonu getmək daha sərfəli olar? Fikrinizi əsaslandırın.

**Haqbilən** Ekoloji mədəniyyətə malik

Bir gün Əli, Aişə, Ömər və Fatimə məktəbdə ekoloji dərs zamanı ətraf mühitin qorunması ilə bağlı müzakirələrə qatıldılar. Müəllim onlara müxtəlif ekoloji problemlər və insanların bu işlərdə aparıcı rol oynadığını diqqətlərinə çatdırdı.

Dərsdən sonra uşaqlar məktəbdə gündəlik kağız istifadəsini müşahidə etməyə başladılar. Onlar hər gün çoxlu sayda kağızın israf edildiyini, hər dərsdə boş vərəqlərin, notların və layihələrin atıldığını gördülər. Uşaqlar bu problemin həllini tapmaq üçün bir plan hazırlamağa qərar verdilər.



Əli və Ömər kağız israfını azaltmaq üçün statistik məlumatları toplamağa başladılar. Onlar məktəbdə nə qədər kağızın istifadə edildiyini və bunun nə qədər tullantıya səbəb olduğunu hesabladılar.

Aişə və Fatimə isə kağızın qənaətinə dair alternativ yollar araşdırdılar. Onlar məktəbdə elektron dərsliklərdən istifadə və kağızın təkrar emalı ilə bağlı təkliflər hazırladılar.

Uşaqlar məktəb rəhbərliyinə kağız israfını azaltmaq üçün təkliflərini təqdim etmək qərarına gəldilər. Onlar kağız istifadəsinin statistikasını göstərən bir təqdimat hazırladılar və kağızın qənaət edilməsi üçün təkliflər təqdim etdilər.



Əli və Ömər israfın maliyyə tərəfini izah edərək kağızın daha səmərəli istifadəsinin məktəb büdcəsinə müsbət təsir edəcəyini vurğuladılar.  Aişə ilə Fatimə də təkrar emalın və kağızın qənaətinin ətraf mühitə necə təsir göstərəcəyini açıqladılar.

Uşaqların ekoloji biliyə sahib olmağı təbiətin qorunması üçün addım atmağa kömək etdi.

# Əl işi

1. Ömərin keçirdiyi sorğuda 11 nəfər məhsul çeşidinin az olduğunu, 8 nəfər isə qiymətlərin rəqiblərlə müqayisədə yüksək olduğunu bildirmişdilər. Bu məlumatlara əsasən piktoqram hazırlayın.

2. Mağazanın əvvəlki gəliri yeni gəlirin $\frac{1}{2}$-nə bərabərdir. Mağaza satışı artıraraq 386 manat gəlir əldə edərsə, mağazanın əvvəlki gəlirini hesablayın.

## Yaradıcı tapşırıq

Müxtəlif mağazalarda ərzaqların satış qiymətlərini müqayisə edin.

## Nitq quruculuğu

1. Bəs sizin öz mağazanız olarsa, onun reklamını necə edərsiniz?

2. Dərslərdə öyrəndiyiniz nəzəri biliklərdən birini seçərək praktikada tətbiq yollarını təqdim edin.

3. Məktəbin yeməkxanasının canlanması üçün plan hazırlayın və təqdim edin.

**Yaradıcı** Praktiki təfəkkür

Əli və Ömər qonşularının ev heyvanları üçün dayəlik etməyə qərar verdilər. Yay tətilində çox insan səyahət edirdi. Bu halda heyvanlar ya tək qalmalı, ya da özləri ilə aparmalı idilər. Bu hal heyvanlara çətinlik yaradırdı. Onlar heyvanları bəsləmək, gəzintiyə çıxarmaq və ümumi qayğı göstərməklə həm pul qazanmağı, həm də heyvanlarla vaxt keçirməyi planlaşdırırdılar.

Onlar işə başladılar. İlk gün hər şey yaxşı gedirdi. Lakin onlar müxtəlif evdən heyvanlara qayğı göstərmək üçün eyni vaxtda çağırılırdılar. Əli və Ömər bütün heyvanlara eyni vaxtda qulluq edə bilməyəcəklərini başa düşdülər. Əgər geciksələr heyvanlar ac qala bilər və bu da sahiblərin narazılığına səbəb olardı.

Əli və Ömər heyvanların qayğısına qalma planlarının niyə işləmədiyini anlamağa çalışdılar. Onlar gördülər ki, hər evə ayrı-ayrılıqda getmək çox vaxt aparır və bu da onların işlərini yavaşladır. Onlar başa düşdülər ki, bu cür vəziyyətlərdə daha praktik həllər tapmaq lazımdır.





Əli: “Bəlkə heyvanları müəyyən bir yerdə toplamağımız üçün sahiblərindən icazə istəyək?”

Ömər: “Biz vaxt cədvəli hazırlaya bilərik və hər evə hansı saatda gedəcəyimizi əvvəlcədən planlaşdıra bilərik”.

Əli və Ömər dostlarından da kömək istədilər. Dostları da onlara qoşuldu. Bu, iş yükünü azaltdı və heyvanlara daha yaxşı qayğı göstərməyi təmin etdi.

Əli və Ömərin işi uğurla davam etdi. Onlar heyvanlara vaxtında və düzgün qayğı göstərdilər və sahiblərindən çox müsbət rəylər aldılar. Əli və Ömər problemləri praktiki düşünərək sürətlə həll etmə bacarıqlarını nümayiş etdirdilər.

## Əl işi

1. Uşaqlar bir heyvanın qida xərcinin gün ərzində təxminən 7 manat olduğunu hesabladılar. 15 belə heyvandan günlük gəlirləri 189 manat olarsa, uşaqların günlük qazancları nə qədər olar?

2. Uşaqlara heyvanları götürmək üçün cədvəl qurmaqda kömək edin.
15 heyvandan 7-si səhər saat 07:30-dan başlayaraq 15 dəqiqə aralıqla, 8-i isə günorta 12:30-dan başlayaraq 10 dəqiqə aralıqla evlərdən götürülməlidir.

**Qeyd:**
Heyvanlara ad verin. Nümunə: Toplan, Məstan, Mika, Poki, Luna, Rikki və s.

## Nitq quruculuğu

**Oxuduğunuz hekayəni rəsm əsərində təsvir edin və şəkil üzrə danışın.**

1-ci qrup: Uşaqlarla heyvan sahiblərinin razılaşma səhnəsini təsvir edin.

2-ci qrup: Uşaqların çıxılmaz durumda qalmağı səhnəsini təsvir edin.

3-cü qrup: Uşaqların həll yolu tapmağı səhnəsini təsvir edin.

4-cü qrup: Uşaqların parkda heyvanlara baxmağı səhnəsini təsvir edin.




Aişə və Fatimə həyəcanla məktəbdə keçiriləcək “İcma bağçası” layihəsinə qoşulmaq qərarına gəldilər. Layihənin məqsədi “2024-Yaşıl dünya naminə həmrəylik ili“ və COP-29 konfransının Bakıda keçirilməsi ilə əlaqədar olaraq məktəbin qarşısında bir bağça yaratmaq və burada müxtəlif bitkilər yetişdirmək idi.



Layihə başladıqda Aişə və Fatimə ilə yanaşı bir neçə şagird də bu işə qoşuldu. Torpağı əkinə hazırlamağı, bitkiləri seçməyi, suvarma sistemi qurmağı və bağçanın planını hazırlamağı qarşılarına məqsəd qoydular. Layihənin gedişatında müəyyən çətinliklər ortaya çıxdı. Torpağın əkinə hazırlanmasında və suvarma sisteminin qurulmasında gözlənilməz problemlər baş verdi. Düşündülər: “Biz bu işi düzgün etdikmi?”




Aişə anladı ki, bəzən o, planlara çox bağlanır və dəyişikliklərə açıq olmaqda çətinlik çəkir. Fatimə isə özünü qiymətləndirərkən bəzən estetik dizaynlarda praktikliyini nəzərə almadığını anladı. Aişə suvarma sisteminin yenidən düzgün işləməsini, bitkilərin tələblərə uyğun su içə bilməməsini nəzərə aldı. Fatimə isə bağçanın gözəl görünməsinə görə plan hazırladı.

Layihə başa çatdı. Müəllim təşəkkürünü bildirdi. Fatimə və Aişə bir-birlərinə baxaraq gülümsədilər və anladılar ki, özünü qiymətləndirmə həyatın hər sahəsində uğur qazanmaq üçün vacibdir.

# Əl işi

1. 34000 $m^2$ torpağın 12000 $m^2$-i 1-ci gün, sonrakı 2 gündə əvvəlkindən 1000 $m^2$ az olmaqla, əkinə hazırladılar. Nə qədər əkilməmiş sahə qaldı?

2. Bir dibçək hazırlamaq üçün 5 plastik şüşə lazımdır. ST sinfi olaraq 24 şagird hərəsi 5 dibçək hazırlamalıdır. Bu zaman şagirdlər nə qədər plastik şüşə yığaraq təbiətə xeyir vermiş olarlar?

**Qeyd :** Tullantı məhsullardan dibçək hazırlayaraq gül əkilməsi tövsiyə olunur.

## Yaradıcı tapşırıq

1. Məktəbinizin həyətinin planını çəkin.

2. Məktəb həyətində əkilə biləcək ağacların növlərini araşdıraraq onların əkilmə qaydalarını müəyyənləşdirin.

3. Məktəbinizin sahəsinə uyğun ağacların sayını müəyyən edərək su damcı üsulu ilə suvarma planını çəkin.

## Nitq quruculuğu

1. Təbiəti qorumaq üçün hansı addımlar atılmalıdır?

2. Yaradıcı tapşırıqda hazırladığınız layihəni məktəb icması qarşısında təqdim edin.

**Yaradıcı** Nəzəri təfəkkür

Ömər yay tətili zamanı ailəsinin kiçik pərakəndə mağazasında valideynlərinə kömək edirdi. Mağazada kənd təsərrüfatı məhsulları satılırdı. Son vaxtlar mağazada müştəri sayı azalmışdı və məhsulların satışı aşağı düşmüşdü. Ömər bu problemi həll etmək üçün nəzəri təfəkkürünü istifadə etməyə qərar verdi.

Ömər mağazanın satış məlumatlarını analiz etməyə başladı. O, bəzi məhsulların niyə satılmadığını və müştərilərin niyə mağazaya gəlmədiyini anlamaq üçün tədqiqat apardı. O, müştərilərin rəyini öyrənmək üçün kiçik bir sorğu keçirdi və bəzi maraqlı nəticələr əldə etdi. Müştərilər mağazanın məhsul çeşidinin az olduğunu və qiymətlərin rəqiblərlə müqayisədə yüksək olduğunu bildirirdilər.

Ömər düşündü: “Biz məhsul çeşidini artırmalı və qiymətləri daha rəqabətə davamlı etməliyik. Amma bunu necə edəcəyimizi dəqiq planlaşdırmalıyıq”.





Ömər bir gün məktəbdə iqtisadiyyat dərsində müəllimin ticarət strategiyaları haqqında danışdığı məlumatları xatırladı. O həmin dərsdə öyrəndiyi nəzəri biliklərdən istifadə edərək, mağazanın satışlarını artırmaq üçün plan hazırlamağa qərar verdi.

Ömər nəzəri biliklərini praktikada tətbiq etməyə başladı. İlk addım olaraq mağazanın məhsul çeşidini artırmaq üçün yeni təchizatçılarla əlaqə saxladı. O, müxtəlif məhsulların alış qiymətlərini analiz etdi və ən sərfəli məhsul gətirən təchizatçılarla müqavilələr bağladı. Həmçinin mağazanın qiymətlərini yenidən nəzərdən keçirdi və bəzi məhsulların qiymətlərini aşağı saldı. Ömər mağazanın reklamını yeniləməyə qərar verdi. O, sosial media platformalarında mağazanın reklamını etmək üçün kampaniyalar başlatdı və yerli icmada tanıtım tədbirləri təşkil etdi. Həmçinin müştərilər üçün xüsusi endirimlər və kampaniyalar təklif etdi.

Beləliklə, Ömərin güclü nəzəri təfəkkürü sayəsində mağazada satış artdı.

# Əl işi

1. Əvvəl məktəbin kağıza olan xərci 960 manat idisə, uşaqlar təkliflərini həyata keçirən zaman məbləğ azalmalı idi. Azalan məbləğ əvvəlki məbləğin $\frac{1}{3}$-ni təşkil edərsə, həmin məbləği tapın.

2. Uşaqlar siniflərdən istifadə olunmuş kağızları toplayaraq, təkrar emala verdilər və 1080 manat pul əldə etdilər. Əldə olunan pulun $\frac{4}{5}$ hissəsinə məktəb üçün yeni planşetlər aldılar. Qalan məbləğin $\frac{2}{3}$ hissəsinə məktəbin kompüterləri üçün siçan (maus) aldılar. Əldə qalan son məbləğlə isə işləməyən kompüterləri ustaya verərək işlək vəziyyətə gətirdilər.

**Verilmiş məlumatlara əsasən aşağıdakı sualları cavablandırın:**

a. Planşetlər üçün nə qədər pul xərcləndi?

b. Uşaqlar siçan (maus) almaq üçün nə qədər pul xərclədilər?

c. İşləməyən kompüterlər üçün nə qədər pul xərcləndi?

d. Uşaqlar məqsədlərinə nail ola bildilər?

## Nitq quruculuğu

1. Bəs siz öz sinfinizdə kağızın istifadəsini azaltmaq üçün hansı tədbirləri görə bilərsiniz?

2. Yaşıllığı qorumaq naminə plan hazırlayın və həyata keçirin.

QEYDLƏR:

QEYDLƏR:

QEYDLƏR:

Uşaqlar üçün "Balaca Tacirlərin Macəraları" dərsliyi Azərbaycan Respublikası Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin və Paşa Holding-in dəstəyi ilə KOB-lar üçün İnsan İnkişafı Forumu və Platforması layihələri çərçivəsində Milli Təhsil Texnologiyaları Mərkəzi, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan Tibb Universiteti və İnkişaf Korporasiyasının birgə işçi qrupu tərəfindən hazırlanmışdır.

KOB-lar üçün

İnsan İnkişafı
Forumu

Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi

PAŞA Holding

MİLLİ TƏHSİL TEXNOLOGİYALARI MƏRKƏZİ

İNKİŞAF KORPORASİYASI